

**Lev Tolstoy**

# İNSAN NƏ İLƏ YAŞAYIR

Tərcüməçi:
Zülfiyyə Abdulla

QANUN NƏŞRİYYATI

Лев Толстой

# ЧЕМ ЛЮДИ ЖИВЫ

Günah işlətmiş mələk “İnsan nə ilə yaşayır?” sualına cavab axtarır. Sualın cavabını tapmasa, səmaya qayıda bilməyəcək! İnsanlar arasında yaşayıb, insan həyatının həqiqi mənasını anlamağa çalışacaq. Sualın cavabı isə əslində, çox sadədir...

Lev Tolstoy bu əsəri İncildən sitatlar əsasında yazıb.

*Bilirik ki, ölümdən və həyatdan keçmişik, çünki qardaşlarımızı sevirik: qardaşını sevməyən ölü kimidir.*

***(I elçi Yohan. III, 14)***

*Bu dünyada rifah içində yaşayıb, qardaşının ehtiyac içində olduğunu görüb ona ürəyi yanmayan kəs: o ürəkdə Tanrı sevgisinə necə yer ola bilər?*

**(III, 17)**

*Övladlarım! Sevgini sözlə və dillə deyil, əməllərimizlə və həqiqətlə göstərək!*

**(III, 18)**

*Sevgi Tanrıdandır, hər sevən insan da Tanrıdan yaranıb və Tanrını tanıyır.*

**(IV, 7)**

*Sevməyən insan Tanrını tanımaz, çünki sevgi elə Tanrının özüdür.*

**(IV, 8)**

*Tanrını heç kim, heç bir zaman görməyib. Bir-birimizi seviriksə, Tanrı bizim qəlbimizdə yaşayır.*

**(IV, 12)**

*Tanrı sevginin özüdür, sevən insan Tanrıyladır, Tanrı da onunladır.*

**(IV, 16)**

*"Mən Tanrını sevirəm" deyib, qardaşına nifrət edən insan yalançıdır. Çünki gözü ilə gördüyü qardaşını sevə bilməyən, görmədiyi Tanrını necə sevə bilər?*

**(IV, 20)**

